Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

*Azad ZÜLALOĞLU- 75*

# Yetmiş beş illik ömür yiyəsi

**Ömür yüyrək at kimidir, illərin nə vaxt, hansı sürətlə keçdiyini bilmək olmur. Bir də baxırsan artıq 60 da, 70 də arxada qalıb. Elə istedadlı qələm dostum Azad Zülaloğlu kimi. Zahirən cavan, həmişə şux, gülərüz, zarafatcıl, nurani sifətli bu insanın 75 illik bir ömür yiyəsi olmasına heç cür inana bilmirsən...**



Azad Zülaloğlunu ötən əsrin 70-ci illərindən tanıyıram. Daha dəqiq desəm, onun özündən öncə "Azad Zülaloğlu" imzasına, müxtəlif janrda qələmə aldığı yazılarına bələd olmuşam. Qələmə aldığı yazılarının yığcamlığı, lakonikliyi, şirinliyi, tənqidi məqalələrinin sərtliyi, ciddiliyi diqqətimi həmişə cəlb edib. Sonralar isə Baləminin sərgüzəştləri, lətifələri, deyimləri onun imzası ilə oxuculara təqdim olunub. Baləminin rolunu da özü aparıb, deyimlərini xalq müdrikliyinin, hazırcavablığının aynasında süzgəcdən keçirib. Gülüb və güldürüb, təbəssüm bəxş edib, böyük mətləbləri bir neçə cümlədə ifadə etməklə çoxlarının ürəyindən tikan çıxarıb.

(Portret cizgiləri)

Orta məktəbdə oxuduğum, mətbuat aləminə təzə-təzə qədəm qoyduğum, efirdə səsim eşidilən çağlarda Azad Zülaloğlunun imzası artıq respublikamızda kifayət qədər tanınmışdı, təcrübəli radio jurnalisti kimi hörmət-nüfuz qazanmışdı, ictimaiyyətdə fəal vətəndaş mövqeyi əldə edə bilmişdi. Elə həmin illərdə taleyini həmişəlik cənub mirvarisi Lənkərana bağlayan Azad Zulaloğlu ilə yaxından tanış oldum və bu səmimiyyət sonradan bizim dostluğumuza çevrildi.

**Azadın şəxsi həyatında və yaradıcılığında qibtə ediləsi və hər kəsə xas olmayan məqamlar çoxdur. O, yazıları çap olunan bütün qəzet və jurnalları, hətta, dostlarının da məqalələrini, kitablarını səliqə ilə arxivində mühafizə edib qoruyur. Bəzən nə barədəsə bizə bir yazı lazım olanda Azadı arayırıq. Cəfakeş dostumuz isə "xəsislik" etmədən dərhal istəyimizi yerinə yetirir.**

Qələmi özünə əbədi yol yoldaşı seçən Azad Zülaloğlunun yaradıcılığı çoxşaxəlidir. Bu sıraya məqalələr, oçerklər, hekayələr, miniatürlər, satirik şeir və bayatılar, lətifələr daxildir. Azadı ədəbi aləmə tanıtdıran isə daha çox onun süzgəcdən keçirib qələmə aldığı düzlü-məzəli lətifələrdir. Bu lətifələrin kökü şifahi xalq yaradıcılığından qaynaqlansa da, müasir dövrümüzdə də onlar yaranır və bu janra müraciət edənlər az deyil.

Təsadüfi deyil ki, Azad Zülaloğlu el arasında "Baləmi" adı kimi tanınmış lənkəranlı Əyyub Məhərrəmovun söylədiklərini uzun illərdən bəri ipə-sapa düzür, həm də yaxından müşahidə etdiyi, görüb-götürdüyü hadisələrə, sərrast deyimlərə, məzəli əhvalatlara yeni məzmun verməklə, onları cilalayıb, müasirliklə əlaqələndirir, oxucuya lətifə kimi təqdim edir. Bir neçə il öncə o, həmin lətifələri "Gülürəm-güldürürəm" adlı kitabında oxuculara təqdim edib və deyim ki, həmin kitab qısa vaxt ərzində böyük rezonansa səbəb olub. Oxuculardan aldığı çoxsaylı məktublar isə dostumuzu ikinci kitabının çapa hazırlanması barədə düşünməyə vadar edib.

Əlbəttə, Azad Zülaloğlunun həyat və yaradıcılığı ilə bağlı çox mətləblərdən söz açmaq olar. Amma bir mətbuat materialında bunu etmək heç cürə mümkün deyil. Onsuz da oxuculara adı və imzası yaxşı tanış olan qələm dostumuz barədə biz bu yazıda yalnız ürək sözlərimizi dilə gətirməyi qərara almışdıq. Yubilyara isə arzumuz birmənalıdır: qoy qələmi heç vaxt korşalmasın, azar-bezar ondan uzaq düşsün və ömrünün yüzüncü baharına qovuşsun! Vəssəlam!

**75 yaşınız mübarək, Azad Zülaloğlu! İnanırıq ki, siz əvvəlki həvəslə öz yaradıcılığınızı davam etdirəcəksiniz. Çünki sizi cavan saxlayan da elə yaradıcılıqla ciddi məşğul olmağınızdır.**

**Ağaddin BABAYEV**